**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№349/4** **19 oktyabr 2022-ci il**

**Azərbaycan Respublikasının Auditorlar Palatası Veteranlar Şurasının yaradılması və tərkibinin təsdiq edilməsi barədə**

Auditorlar Palatası sədrinin 2022-ci il 20 iyul tarixli 1/24 №-li sərəncamı ilə təsdiq edilmiş "Auditorlar Palatasının üzvləri arasında peşə fəaliyyətinə dair aparılmış sorğunun nəticələrinin tətbiqi ilə bağlı tədbirlər planı"nın 6-cı "Auditorlar Palatası Veteranlar Şurasının yaradılması ilə əlaqədar təşkilati tədbirlərin həyata keçirilməsi" bəndinin icrasını təmin etmək məqsədi ilə icraçı direktor S.Gülməmmədov və Aparatın rəhbəri Q.Bayramov tərəfindən hazırlanmış Azərbaycan Respublikasının Auditorlar Palatası Veteranlar Şurasının Əsasnaməsinin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikasının Auditorlar Palatası Veteranlar Şurasının Əsasnaməsi təsdiq edilsin (əlavə olunur).

2. Auditorlar Palatası Veteranlar Şurasının tərkibi aşağıda göstərilən üzvlərdən ibarət olmaqla təsdiq edilsin:

| **Veteranlar Şurasının üzvləri** | | |
|---|---|---|
| 1. | Abbasov Çingiz Abbas oğlu | Sərbəst auditor |
| 2. | Alıyev Köçəri Əmralı oğlu | Sərbəst auditor |
| 3. | Bayramov Qəşəm Hacalı oğlu | Aparatın rəhbəri |
| 4. | Bayramov Vəli Oruc oğlu | Sərbəst auditor |
| 5. | Hüseynov Fərhəddin Əbülqasım oğlu | "LŞ Audit" MMC-nin direktor-auditoru |
| 6. | Musayev Adıgözəl Maqsud oğlu | "Xəzər-Audit 2019" MMC-nin auditoru |
| 7. | Pənahov Novruz İsmayıl oğlu | Sərbəst auditor |
| 8. | Qənizadə Ramiz Tofiqi | "Q.R.T." MMC-nin auditoru |
| 9. | Soltanov Qulu Mehbalı oğlu | Sərbəst auditor |

3. Auditorlar Palatası Veteranlar Şurasına tapşırılsın ki:

3.1. təsdiq edilmiş heyətdən Şuranın sədrini və sədr müavinini seçsinlər;

3.2. bir ay müddətində Şuranın 2023-cü il üzrə iş planının təsdiq edilməsini təmin etsinlər;

3.3. Şuranın Əsasnaməsindən irəli gələn vəzifələrin vaxtında və keyfiyyətlə icrasını təmin etsinlər.

4. Bu qərarın mətni Palatanın internet səhifəsində yerləşdirilsin.

5. Bu qərarın icrasına nəzarət Palatanın icraçı direktoru S.Gülməmmədova həvalə edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**